# Torpaq ata qoxuyar...

**Vətəni vətən edən qana bulanmış torpaqdır!**

Vətən əzəmətli bir qaladır. Bu qalanı yıxılmağa qoymayan isə onun qayalarıdır. Hər cümləsi "Vətən sağ olsun!" ilə başlayan bu qayaların qəlbində o qədər böyük Vətən sevgisi var ki! Milyonlarla insanın qəhrəmanına çevrilərək heç bir zaman geri çəkilmir və son nəfəslərinə qədər döyüşüb, qaya kimi düşmənin qarşısını kəsirlər.

Hər birimizin qəlbində müqəddəs bir hiss - Vətənə olan məhəbbət hissi yaşayır. Vətən sevgisi insanın qəlbinə hakim kəsilən, özündən asılı olmadan yaranan bir ümmandır. Hər bir kəs bu dünyaya göz açdığı anda ilk olaraq anasını görürsə, ilk qədəmlərini Vətən torpağında atır və torpaq sevgisinin hərarətini də bu zaman duyur. Elə buna görə də, qəhrəmanlıq etmək, adının tarixin salnaməsinə yazılmasına nail olmaq vətən sevgisindən, torpaq sevgisinin hərarətindən irəli gəlir. Vətən sevgisinin əzəli insanın üryindəki vətənpərvərlik duyğusunda kök atır.

Hər kəs bir gün ölmək üçün doğulur. Amma elə insanlar var ki, sanki onlar Allah qatında xüsusi seçilmiş insanlardır. Çünki onlar ölmür, sadəcə cismən bu dünyanı tərk edir. Elə bir zirvəyə qalxırlar ki, onun qədər uca bir zirvə yoxdur. Elə bir ad var ki, ondan daha dərin mənaya malik olan söz yoxdur. Ad-şəhid, zirvə-şəhidlik zirvəsi… Şəhidlik zirvəsi hünər və qeyrət simvoludur. Bu ucalığa yüksələnlərin ömür yolu qısa olsa da, şərəfli və əsil insanlığa nümunə sayılır.

"Məni bu yoldan heç nə, heç kim döndərə bilməz" nidasıyla 29 sentyabr tarixində zəfər yoluna çıxan igid qəhrəmanımız həyatda çox qısa, lakin şərəfli və mənalı ömür yaşamağı hər şeydən üstün bildi. Məsləki, məramı, Tanrıdan qismətı də yalnız şəhidlik imiş.




**Şəhidimizi tanıyaq**

Eyyubov Sərvan Yusif oğlu 2 noyabr 1998-ci ildə Qəbələ rayonunun Böyük Pirəli kəndində anadan olub. Orta təhsilini Böyük Pirəli kənd orta məktəbində aldıqdan sonra təhsilini Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində davam etdirib. Sərvan 2017-ci il yanvar ayının 6-da həqiqi hərbi xidmətə yollanıb. O, Tərtər rayonunda "N" saylı hərbi hissədə xidmət edib.

*Qismət nədir bilmirəm,*
*Qəlbindən də itmirəm.*
*Ömürlük ki, getmirəm,*
*Ana, əsgər gedirəm.*

Sərvan şeir yazmağı çox sevirdi. Elə bu şeiri də hərbi xidmətə yollanmamışdan öncə yazır və valideynləri üçün xatirə olaraq saxlayır. Şeirdə də yazdığı kimi o xidmətə ömürlük getmir və vətənə borcunu layiqincə yerinə yetirərək, 2018-ci ilin iyul ayında öz evinə geri dönür. Sərvan hərbi xidmətdən qayıtdıqdan 2 il sonra - 2020-ci il fevralın 22-də valideynləri onun toyunu edir. Sərvanın ailəsinə necə bağlı və zarafatcıl biri olduğunu da elə ailəsi ilə söhbət zamanı öyrəndik .

***Yarım qalmış arzular...***

Sərvan Eyyubovlar ailəsinin böyük oğlu idi. Digər 2 qardaşı-Telman və Xəzan isə Sərvandan yaşca kiçikdirlər. Hər bir gənc kimi Sərvanın da qəlbində arzuları var idi. İstər ailəsi üçün, istərsə də özü üçün... Şəhidimizin ən böyük arzusu hərbçi olmaq idi. Onun bu arzusu vətəninə olan sevgisindən qaynaqlanırdı. Nə cür olur, olsun dövlətinə, torpağına layiqli insan olmaq istəyirdi. Bəlkə də elə onun bu arzusu, bu istəyi yolunu müharibədən saldı. O, başa düşürdü ki, vətən dar gündədir. Onun harayına, dadına çatmaq lazımdır. Elə buna görə də, torpaqlarımızın azadlığı uğrunda Vətən müharibəsi başlayandan bir gün sonra - 28 sentyabr tarixində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq şöbəsindən müharibəyə çağırılanda Sərvan ailədə, qohum-əqrabada hamı ilə halallaşır və sağollaşaraq çıxır. Yeni ailə qurmasına baxmayaraq, yenə də "Öncə Vətən" deyir. Və ailəsi ilə sağollaşarkən: - "Hər şey yaxşı olacaq. İnşallah sağ-salamat qayıdacam", - deyir. Sərvanla bərabər onun qardaşı Telman Eyyubova da müharibəyə çağırış gəlsə də, o qardaşını geri qaytarır və döyüşə özü yollanır. Sərvan, ömrünün bahar çağında torpaq uğrunda canını qurban verməyə hazır olduğunu bu hərəkəti ilə bir daha sübut edir və könüllü olaraq öncə təlimlərə, daha sonra döyüşlərə qoşulur. O, Vətən Müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Talış kəndi və Suqovuşan yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak edib.

**"Oğlumun adını Tuncay qoyarsınız"...**

Zaman ötür, fəsillər dəyişir, illər əsrlərə, əsrlər minilliklərə çevrilir, tarixə dönür. Bu illər ərzində bir çox tarixi hadisələr




baş verir. Bəzi tarixi hadisələr müəyyən dövrdən sonra yaddan çıxır, unudulur. Lakin elə tarixi hadisələr də var ki, heç vaxt unudulmur. Elə insanlar var ki, dünyasını dəyişir və bir müddət sonra unudulur. Hətta ondan sonra bir yadigarı, davamçısı belə qalmır. Amma şəhidlər elədirmi? Xeyr... onlar bir ölər, min dirilər. Eynilə şəhid Sərvan kimi... Sərvan döyüşdə olarkən çox gözəl bir xəbər-ata olacağı xəbərini alır. Onun ailəsi ilə son danışığı oktyabr ayının 10-da olur. O, son zəngindən iki gün sonra yəni, 12 oktyabr 2020-ci ildə Tərtər istiqamətində qəhrəmancasına şəhidlik zirvəsinə ucalır. Sərvanın gözəl xasiyyətindən və son etdiyi zəngdən danışan həyat yoldaşı Aytac xanım deyir ki, Sərvanla son dəfə danışanda: -"Əgər mən şəhid olsam, oğlumun adını Tuncay qoyarsız. Övladımı göz bəbəyin kimi qoruyarsan" - söyləyib. Şəhidimizin 31 may 2021-ci ildə övladı dünyaya gəlib. Adını isə atasının vəsiyyətinə uyğun olaraq Tuncay qoyublar.

Tuncay hələ heç nə dərk etmir, hətta tam danışa da bilmir. Axı, o hələ körpədir. Axı o, hələ şəhidliyin nə demək olduğunu anlaya bilməz. Amma gün gələcək böyüyəcək, hər şeyi başa düşəcək. Anasından atasını soruşacaq, onu tanımaq istəyəcək. "Ana, atam necə biri idi?" deyə, soruşacaq. Bu zaman ana övladına atasının igidliyini, necə mərd biri olduğunu danışacaq. Vətənini necə sevən bir atası olduğunu biləcək Tuncay. "Ana, mən də atam kimi qoçaq, mərd olacam", - deyəcək. Tuncay ata qoxusunu vətənindən, torpağından alacaq. Bir şəhid övladı üçün Vətən ata qoxuyar. Çünki, bu vətəni vətən edən onların atalarının qanı bulanmış torpaqdır. Tuncay bu torpağın hər qarışında atasının qoxusunu hiss edəcək.

İndi Tuncay balamız üçün dövlət öz qayğısını, diqqətini bir an olsun əsirgəmir. Eynilə digər şəhid övladlarında olduğu kimi "Yaşat" Fondu tərəfindən şəhidimizin əmanətinə bank hesabı açılıb. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamına əsasən şəhidimizin igidliyi də diqqətdən kənarda qalmayıb. Belə ki, Sərvan Eyyubov ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

Sərvan kimi oğullar vətən torpağına öz şəhid qanları ilə can, nəfəs oldular və mamır olub qayalarda deyil, dünyadakı bütün azərbaycanlıların qəlbində bitərək kök saldılar. Vətən sənə oğul deyib bağrına basdı, şəhidim! Sən vətən üçün döyüşdün, özünü vətəninə qurban verdin. Qərinələr ötsə belə, nəsillər bir-birini əvəz etsə belə öz qanları ilə dastan yazan şəhidlərimiz, torpaq uğrunda canından keçən oğullarımız heç vaxt unudulmur. Ən ali, müqəddəs və şərəfli olan şəhidlik zirvəsinə yüksələnlər daim qəlblərdə yaşayırlar.

O şəhidliyi ilə xalqımızın şanlı qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazanlardan biri kimi yaddaşlarda silinməz iz qoydu.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**

# Dünya evi darısqaldı...

**İnsan var ki...**

İnsan var ki, dünyaya gəlişi də, gedişi də məna dolu; insan var ki, gəlişindən, gedişindən bu dünyanın gərdişindən heç anlamaz, göl suyu tək hamar görər kainatın varlığını, bəşəriyyətin intəhasız (sonu bilinməz) təsdiq və təcridlərlə dolu sarmaşan dağlı-aranlı, dərə-təpəli, sıldırım qayalı, dəniz kimi, göy qübbəsi kimi; torpağının hər qarışı bir tarix anladan, ancaq anlamadan keçər yolu, həyat yolunu. Belə insanlar cismən köçərkən dünyadan yalnız torpağa qarışar təbiətin şimşəklərindən diksinən qasırğalı yağışlar, şaxta-sazaqlar, qaynar günəş şüası belə şəxslərin cisminin belə torpağa qarışmasını əhəmiyyətsiz edər. Axı bahar gələndə torpaq oyanar, yeni həyat başlaması etapı öz fəaliyyətinə davam edər. Kaş ki, insanlığı duyulmayanların külü belə bu dünyada qalmaya. Və külək onu bu torpağa səpməyə. Bax, o zaman doğuluşdan, gəlişi də, gedişi də məna kəsb edən bir ömür yaşayan Musa Yaqublar yaşardı bu dünyada daima... Dünya isə daha gözəl olardı; dahi Məmməd Araz deyən kimi:

- Dünya sənin, dünya mənim, dünya heç kimin deyil, dünya onu dünya kimi təzahür etdirənlərin olaraq, qərinələrlə insan məfhumunun varlığı ilə hər kəsin olardı. Necə ki, bizim sevimlimiz Musa Yaqub yazıb:

***Leyləklərin çöp yuvası boş qalıb,***
***Bahar gedib, payız gəlib, qış qalıb,***
***Göy çəməndə dağ yanıb, daş qalıb,***
***Bu dünyanın qara daşı göyərməz.***

**İnam və ümid dolu**

İnsan insan adını doğrultmaq üçün yaşadığı həyatda eqoistlikdən uzaq olaraq özündən müştəbeh olmamalı, torpağa, ana-ataya və vətənə hər zaman özünü borclu hiss etməlidir. Yaşadığı həyatı elə yaşamalıdır ki, bir ovuc torpağa dönə bilsin. Necə ki, Musa Yaqub dedi və dediyi kimi də yaşadı...

***Bəlkə də borcumdan çıxmadım,***
***Ömür bahar deyil, bir də qayıtsın.***
***Ölsəm də qoynunda qoy ölüm ki, mən***
***Çürüyüm, bir ovuc torpağın olum...***

Bax, belə bir insan haqqında söz demək hünər istər, bacarıq istər. Onu-yaşadığı həyatı, hər kəsin qəlbinə yol aldığı yaradıcılığı, təbiətin hər üzünə sevgisi, sevgisinə qəlbinin, cisminin tam varlığıyla vurğunluğu, vətən və torpaq sevgisinin ümmanlığı, insanlığın ən layiqli varlığı olmasını əks etdirmək qələmin gücü deyil...

**Elə bil vulkanlar yanır canında**

Musa Yaqub şeiriyyəti elə bir epopeya ki, hər sözü, hər kəlməsi gözlərinin qığılcımlarından çıxmış sanki. Və bu qığılcımlar göyləri sanki kəhkaşanında ulduz edib, səsini küləklərə verib. Onun şeiriyyətini oxuduqca Məmməd Araz deyimi ilə desək, ürək bir şıltaq körpədən, bir nər cavandan müdrik bir qocaya çevrilir.

Bir dünya var onun şeiriyyətində. Elə bir



dünya ki, baxışında üfüqlərin baxarı, əllərində işığının açarı, gülüşündə çaylarının axarı... ona görə də onun şeiriyyətini oxuduqca duyursan ki, o, dumanların qəzəbinə qor olma deyir.

Onun şeiriyyəti elə bir məsəl ki, onu oxuduqca heyrətlənər, heyrətlənərlər, elə heyrətlərdə də qeyrətlənərlər, xəyanəti yuxularda belə yaxalarlar. Çünki onun sevgi dünyası sədaqət rəmzidir. Və bu rəmz onun "Durum gedim eşqimlə" istəyi ilə tamamlanır. "Eşqinin" dünyası ayrı olduğu üçün onun dünyasına tələsir şair. Ancaq bu tamamlanma yalnız sözdədir. Çünki onun sevgi dünyası danılmaz bir epopeyadır, nəsillərə örnək bir sevgidir.

Musa Yaqub ürəyi elə bir ürək ki, saflığıyla çox sözə inanır, yəni inam "yüklü"... qocaman şairin ürəyi uşaqdır sanki. Və bu ürəyin hər damla qanı röyadan, çamurdan, lildən uzaqdır.

Musa Yaqub ürəyi bir dənizdir, ancaq bu dənizə üzü hamar kimi baxmaq yanlışdır. Dəniz çölünü içinə bükən bir nəhəngdir. Onun yaradıcılığını vərəqlədikcə, onun həyatını öyrəndikcə bu nəhəngliyin dəniz hamarlığı yaddaşlara iz salır...

Musa Yaqubluu öyrəndikcə, duyursan ki, ağlından qəlbinə gedən yol həmişə açıqdır, ürəyi ilə beyni vəhdət bir söz bazasıdır.

Musa Yaqub elə bir şair ki, elə bil vulkanlar yanmış canında!.. və o vulkanların izi həyat və yaşam tərzi mövcud olduqca görünəcəkdir...

Bütöv Azərbaycan istəyi, vətəninin hər qarışının Azərbaycan adında birgəliyi onun ən böyük istəyi idi. Bu istəyini tam olmasa da, gördü şair. 30 illik bir həsrətə son qoyuluşu, zəfər sevinci yaşadı... 84 yaşlı, ruhən cavan, yazıb-yaratmaq eşqi ilə döyünən ürək kaş ki, vahid Azərbaycan adını-cəmi Azəri torpaqlarının tam mənada Azərbaycan adı altında bütövlüyünü görərdi... o, gün də gələcək, şair ruhu şad olacaq! bu gün vətəninin bir ovuc torpağına çevrilən şairin böyük ruhu qarşısında baş əyilərək Böyük Zəfər sevinci ilə deyiləcək: "Ruhun şad olsun, şair, arzuların reallaşdı!"

**Ruhum ilə gülərsənmi?..**

***Payız durnam, uçub getdin,***
***Bir də dönüb gələrsənmi?***
***Sən dönəndə mən olmasam,***
***Ruhum ilə gülərsənmi?..***

Bəli, Musa Yaqub illərin bütün fəsillərində, aylarında, günlərində, saatlarında, anlarında xatırlanacaq bir sənətkardır. Və ruhu hər durna gəlişində-dünya var ikən güləcək! Çünki o daima xatırlanacaq!...

**BİBİXANIM.**